TURKPA
PARLIAMENTARY ASSEMBLY OF TURKIC-SPEAKING COUNTRIES

Hüquq məsələləri və beynəlxalq əlaqələr komissiyası

Tövsiyə qərarı

COM/LAIR/REC/002/FINAL

**Yeddinci iclas**
**Astana, 1 mart 2019**

# "TÜRKPA ÜZV ÖLKƏLƏRİNDƏ ALİ TƏHSİL SAHƏSİNDƏ EKVİVALENTLİK PROSESLƏRİNƏ DAİR PROBLEMLƏR"

Parlament Assambleyası**:**

Sülhün, qarşılıqlı anlaşmanın, tolerantlığın təşviqində, eləcə də TÜRKPA üzv ölkələrinin vətəndaşları arasında qarşılıqlı etimadın yaradılmasında ali təhsilin mühüm rol oynadığını ***nəzərə alaraq***;

TÜRKPA üzv ölkələrində ali təhsilin mövcud vəziyyətini həm keyfiyyət, eyni zamanda kəmiyyət baxımından ***müsbət qiymətləndirərək***;

TÜRKPA üzv ölkələrinin hər zaman müxtəlif mədəniyyət və dilləri daha yaxşı anlamaq məqsədilə akademik mobilizasiyanı bir vasitə olaraq təşviq etdiyini ***vurğulayaraq***;

Xarici ölkədə təhsil və ya işin fərdin mədəniyyət və akademik zənginliyinə töhfə verə biləcəyini ***nəzərə alaraq***;

Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin "Böyük Çölün Yeddi Özəlliyi" adlı məqaləsində öz əksini tapan fikir və prinsiplərin əhəmiyyətini ***vurğulayaraq***;

TÜRKPA üzv ölkələri arasında ali təhsil sahəsində əməkdaşlığın həyata keçirilməsi məqsədilə Türk Şurasının çərçivəsində Türk Universitetlər Birliyinin yaradılmasını ***müsbət qarşılayaraq***;

Tel:+99412 5635835 | Fax:+99412 5635834 | info@turk-pa.org | www.turk-pa.org | /turkpaorg /TURK_PA
Address: 106, S.S Akhundov str., microdistrict 7, AZ1116, Binagadi / Baku / Azerbaijan

TÜRKPA-nın hər hansı bir üzv ölkəsində təhsilin, eləcə də əldə edilmiş sertifikat, diplom və dərəcələrin digər bir üzv ölkəsində tanınmasının akademik və peşəkar mobilizasiyanın təşviq edilməsində mühüm bir vasitə olduğunu ***qəbul edərək***;

İnkişafın və ixtisasların tanınmasının fərdlər, eləcə də bütün türk dünyasına əhəmiyyətli fayda verəcəyinə ***əminliliyini bildirərək***;

TÜRKPA üzv ölkələrində yüksək ixtisaslaşmış qurumlar tərəfindən güclü hüquqi çərçivədə həyata keçirilən ekvivalentlik proseslərini yüksək ***qiymətləndirərək***;

Birgə mexanizm və təcrübələrin qarşılıqlı, faydalı, uyğun və səmərəli şəkildə tətbiqi və qurulması ilə ekvivalentlik proseslərinin həyata keçirilməsi zəruriliyini ***diqqətə alaraq***;

Hazırda, qarşılıqlı tanınma təcrübəsinin təkmilləşdirilməsi və TÜRKPA üzv ölkələrində ali təhsilin mövcud vəziyyətinə uyğunlaşdırılması və daha şəffaf olmasının zəruriliyini ***nəzərə alaraq***;

TÜRKPA üzv ölkələri arasında ali təhsildə ümumiyyətlə praktiki problemlər və xüsusilə də ekvivalentlik proseslərin həllinin tapılması öhdəliyini ***yenidən təsdiqləyərək***;

**Üzv ölkələrin parlament və hökumətlərinə tövsiyə edir**:

1. Müvafiq hökumət mexanizmləri daxilində ekvivalentlik məsələləri üzrə ofislərinin funksional imkanlarının yaradılması və ya gücləndirilməsi;

2. Ekvivalentlik məsələləri üzrə ofislər arasında ünsiyyətin gücləndirilməsi, həmçinin əməliyyatda uyğunluq və davamlılığı təmin etmək məqsədilə əlaqələr qurmaq və əlaqələndirici şəxslərin müəyyən edilməsi;

3. İxtisasların tanınmasının asanlaşdırılması istiqamətində, təhsil sistemləri ilə bağlı kifayət qədər və dəqiq məlumatların verilməsinin təmin edilməsi;

4. Bütün təhsil müəssisələrində ixtisasların qiymətləndirilməsi məqsədilə məlumat üçün hər hansı bir müfaviq tələbə uyğunluğunun təşviq edilməsi;

5. Tanınma barədə qərarların səlahiyyətli orqan tərəfindən əvvəlcədən müəyyən edilmiş məqbul müddətdə həyata keçirilməsinin təmin edilməsi;

6. Xarici ixtisasların qiymətləndirilməsinə dair prosedur və meyarların şəffaf, əlaqəli və etibarlı olmasının təmin edilməsi və təhsil sahəsində inkişafları nəzərə alaraq şəffaflığın artırılması məqsədi ilə mütəmadi olaraq nəzərdən keçirilməsi və bu prosedura dair ciddi fəsadlara səbəb olacaq tələblərin aradan qaldırılması;

7. TÜRKPA üzv ölkələri tərəfindən oxşar tanınma hallarının məqbul şəkildə nəzərdən keçiriləcəyini təmin edən prosedurların ardıcıllığının artırılması və xarici ixtisasların qiymətləndirilməsi üçün meyarlardan istifadə edilməsi;

8. TÜRKPA üzv ölkələrinin diplomlarının ümumilikdə regionda tanınmasını asanlaşdırmaq məqsədilə müvafiq addımların atılması;

9. Türkiyənin YÖKSİS məlumat bazası kimi TÜRKPA-nın digər üzv ölkələrinin ali təhsil müəssisələrində də tələbə və məzunlara dair oxşar açıq elektron məlumat bazasının yaradılması (giriş, sorğu və s.)

10. Türkiyənin Ali Təhsil Şurasının "Tanınma və Akkreditasiya Bürosunun" mövcud strukturunu və fəaliyyətinin qanunvericilik baza, inzibati və texniki quruluş, əməliyyat və istifadə baxımından nəzərə alınması və Türkiyənin verəcəyi institusional dəstəkdən istifadə edilməsi;

11. Türk Universitetlər Birliyinin üzv universitetləri arasında ali təhsil sahəsinin yaradılması haqqında İstanbul Direktivində təsbit olunmuş prinsiplərə riayət edilməsi;

12. Türk Universitetlər Birliyinin Orhun Mübadilə Proqramı və Türkiyənin Mövlana Mübadilə Proqramı kimi tələbə və akademik heyətin mobilizasiyasının asanlaşdırılması məqsədilə milli və regional çərçivələrdə həyata keçirilən mübadilə proqramlarında iştirak, onların imkanlarından istifadə edilməsi.